# Sevginin

# 5 DİLİ

Bir ömürlük
sevginin sirləri

Qari Çapman

Tərcüməçi:
Sadiq Musa

qanun nəşriyyatı

# THE 5 love LANGUAGES®

*The Secret to Love That Lasts*

Gary Chapman

On ildən artıqdır “New York Times”ın bestselleri hesab edilir.

Sevmək çox asandır. Sevgi ilə qalmaq – bax, bu, hünərdir! Sevgi hisslərini necə məsum saxlamalı, gündəlik həyatın tələbləri və ziddiyyətləri fonunda, yaxud, sadəcə bezmədən, yorulmadan bu hissləri necə yaşatmalı?

“Sevginin beş dili” qarşılıqlı münasibətlərin bugünkü mürəkkəbliyini əks etdirən təsirli kitabdır.

**Gary Chapman** **THE FIVE LOVE LANGUAGES:**
**the secret to love that lasts**
**Qari Çapman** **SEVGİNİN BEŞ DİLİ:**
**bir ömürlük sevginin sirləri**
Bakı, Qanun Nəşriyyatı, 2023, 208 səh.

Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 20.06.2023

Tərcüməçi: Sadiq Musa
Redaktor: Afaq Vasifqızı
Korrektorlar: Ülviyyə Emin, Şəhla Yarıbəyli
Texniki redaktor: Aygül Yelmarlı
Mətn dizaynı: Günay Seyidli
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-009-5

© QANUN nəşriyyatı, 2021; 2023
© 1992, 1995, 2004, 2010, 2015 by Gary D.Chapman

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları
Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri
“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında”
Azərbaycan Respublikasının Qanununa ziddir.

*Karolin,*
*Şelli və Derekə həsr olunur*

## *Kitabın içindəkilər*


Minnətdarlıq ........................................ 9

1. Evlilikdən Sonra Sevgiyə Nə Olur? ........................................ 11
2. Sevgi Qabınız Dolu Olsun ........................................ 19
3. Aşiq Olmaq ........................................ 27
4. Sevgi Dili # 1: Təqdiredici Sözlər ........................................ 39
5. Sevgi Dili # 2: Yaxşı Vaxt Keçirmək ........................................ 59
6. Sevgi Dili # 3: Hədiyyələr........................................ 81
7. Sevgi Dili # 4: Xidmətdə Durmaq ........................................ 99
8. Sevgi Dili # 5: Fiziki Toxunuş ........................................ 117
9. Əsas Sevgi Dilinizi Müəyyən Edin ........................................ 131
10. Sevgi Seçimdir ........................................ 143
11. Sevgi Fərq Yaradır ........................................ 153
12. Sevmədiyiniz Adamı Sevmək ........................................ 161
13. Müəllif Sözü ........................................ 177

Tez-Tez Verilən Suallar ........................................ 181
Sevgi Dilini Müəyyənləşdirmək Testi ........................................ 199

# Sevginin

# 5 DİLİ

# *Minnətdarlıq*

Sevgi evdə başlayır və ya başlamalıdır. Sevgi mənim üçün Sem və Qreys, atam və anamdır. Onlar olmasaydı, mən nəinki sevgi haqqında kitab yaza bilməzdim, hətta daim sevgi axtarışında olardım. Ev mənim üçün həmçinin həyat yoldaşım Karolin anlamına gəlir. O mənim sevgi dilimdə danışmağı bacaran bir xanımdır. Övladlarımız Şelli və Derek isə artıq yuvamızdan ayrılıb öz həyatlarını yaşayırlar. Bununla belə, mən onların sevgisini hiss edə bilirəm.

Mənim sevgi konseptimə dəstək verən peşəkarlara da minnətdarlığımı bildirirəm. Onların arasında Ross Kampbell və Cudson Svihartı xüsusi qeyd etmək istəyirəm. Kitabın redaktorları Debbi Barr, Keyti Peterson, Betsi Nyuenhuyse nəşrin ərsəyə gəlməsində böyük fədakarlıqlar etdilər. Texniki dəstəyə görə Trisiya Kubeyə, Don Şmidtə təşəkkür edirəm. Onlar nəşrin zamanında çapa getməsi üçün əllərindən gələni əsirgəmədilər. Sonda və ən vacibi illərlə ən məhrəm mövzularını mənimlə paylaşan cütlüklərə təşəkkür etmək istəyirəm. Bu kitab həm də onların dürüstlüyünün nəticəsidir.

# Sevginin

# 5 DİLİ

# 1

## *Evlilikdən sonra sevgiyə nə olur?*

O, dəniz səviyyəsindən 30 min fut hündürlükdə, Buffalo-Dallas arasında əlindəki jurnalı ön oturacağın cibinə qoydu və üzünü mənə çevirib soruşdu:

– Siz nə işlə məşğul olursunuz?

– Mən nikah məsələləri üzrə məsləhətçiyəm, – dedim, – evliliyin yaxşılaşdırılması ilə bağlı seminarlar keçirəm.

– İllərdir bu suala cavab tapa bilmirəm, – dedi. – Evlilikdən sonra sevgiyə nə olur?

Mürgüləmək istəyimi kənara qoyub:

– Nəyi nəzərdə tutursunuz? – deyə soruşdum.

– Belə deyim: mən üç dəfə evlənmişəm və hər dəfə nikaha qədər hər şey əla olub. Evlilikdən sonra isə münasibətlər pozulub. Mənim ona olan sevgim, onun da mənə olan sevgisi elə bil yoxa çıxıb. Mən kifayət qədər ağıllı adamam. Uğurlu biznesim var, ancaq bu məsələni başa düşə bilmirəm.

– Siz neçə il evli olmusunuz? – deyə soruşdum.

– İlk evliliyim təxminən 10 il sürdü. İkinci evliliyim üç il çəkdi. Sonuncu isə təxminən altı il.

– Sizin sevginiz evlilikdən dərhal sonra yoxa çıxıb, yoxsa bu, tədricən baş verib? – deyə soruşdum.

– İkinci evliliyim lap əvvəldən alınmadı. Nə baş verdiyini anlaya bilmədim. Həqiqətən, düşünürdüm ki, biz bir-birimizi sevirik. Amma bal ayımız əsl fəlakət oldu və münasibətlərimiz əvvəlki qaydasına düşmədi. Toya qədər cəmi altı ay görüşmüşdük. Əsl sevgi yaşamışdıq. Sevgi-məhəbbət! Evlilikdən sonra isə qırğınlar başladı. Birinci evliliyimdə isə uşaq doğulanadək, yəni ilk üç-dörd ili gözəl yaşadıq. Övladımız dünyaya gələndən sonra hiss edirdim ki, onun bütün diqqəti uşağa yönəlib. Mən də əhəmiyyətsiz bir adama çevrilmişəm. Sanki onun yeganə məqsədi uşaq doğmaq imiş, uşaqdan sonra mənə ehtiyacı yox imiş.

– Bəs narazılığınızı bildirmişdiniz?

– Bəli, mən ona dedim. O mənə dəli dedi. Bildirdi ki, mən 24 saat uşağa baxmağın nə demək olduğunu anlaya bilmirəm. Dedi onu başa düşməyim və kömək eləməyim daha məsləhətlidir. Nə qədər çalışsam da, heç bir nəticə hasil olmadı. Aramızdakı uçurum böyüdü. Bir müddət sonra sevgidən əsər-əlamət qalmadı, böyük bir boşluq yarandı, boşluq. İkimiz də bu qərara gəldik ki, bizim evliliyimiz bitib.

Son evliliyinsə tam fərqli olacağını düşünürdüm. Artıq üç il idi boşanmışdım. Və biz iki il idi görüşür-